UOT 338.43

*Həcər Əjdər qızı ORUCOVA*
*Gəncə Dövlət Universitetinin müəllimi*

# AZƏRBAYCAN İQTİSADİYYATININ AQRAR SAHƏSİNDƏ TƏDARÜK VƏ TƏCHİZAT SİSTEMİNİN ROLU

*Xülasə*

**Tədqiqatın məqsədi** - Tədarük sisteminin məzmun elementlərinin nəzərdən keçirilməsi, göstərilən istiqamətdə tədarük fəaliyyətinin mövcud durumunun geniş təhlil edilərək qiymətləndirilməsi, bunlarla yanaşı isə, bazar iqtisadi münasibətlərinin mövcud tələblərinə uyğun aqrar tədarük sisteminin daha da təkmilləşdirilməsinin prioritet istiqamətlərinin müəyyən edilməsidir.

**Tədqiqatın metodologiyası -** Tədarük sisteminin düzgün təşəkkülü, formalaşması və inkişafı istiqamətində həm yerli, həm də xarici ölkə alimlərinin çoxsaylı əsərləri, ölkə Prezidentinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar və dövlət proqramları və digər hüquqi-normativ aktları təşkil edir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Yerinə yetirilən mövcud tədqiqat işi nəticəsində əldə edilən mühüm elmi nəticələr və irəli sürülən əməli təkliflər - bir sıra məsələlərin kompleks həll olunmasına şərait yaradır. Eyni zamanda kənd təsərrüfatında tədarük sisteminin optimal formalaşdırılması və təkmilləşdirilməsinə dəstək verilməsi istiqamətində zəruri və dolğun tədbirlərin aparılması, göstərilən fəalyyətin düzgün təhlil olunması və qiymətləndirilməsi sisteminin qurulması baxımından əlverişlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** göstərilən sahədə tədarük sisteminin bazar münasibətləri şəraitinə uyğun əsas fəaliyyət istiqamətləri müəyyən edilərək, onun başlıca və mühüm prinsipləri aşkarlanmışdır.

***Açar sözlər: ölkə iqtisadiyyatı, aqrar sahə, dayanıqlı inkişaf, tədarük sistemi, dövlət tənzimlənməsi, təkmilləşdirmə.***

## *Giriş*

Məlumdur ki, müasir postneft dövrünün şərtlərinə uyğun olaraq, aqrar sahənin keyfiyyət yönümlü dayanıqlı inkişafı - dövlətin apardığı iqtisadi siyasətin mühüm tərkib hissələrindən birini təşkil edir. Bu məqsədlə, göstərilən sahədə təşəbbüskarlıq fəaliyyəti və sahibkarlığın inkişafına lazımi şərait yaradılmış, onların qarşılaşdıqları çoxsaylı problemlərin həlli istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir. Bu isə səbəbsiz sayıla bilməz. Çünki, aqrar sahə dünyanın bütün ölkələrində dövlətin tənzimləyici tədbirləri ilə əhatə olunmuşdir. Əlbəttə, bu prosesdə optimal həddin tapılması və bu əsasda fəaliyyət istiqamətlərinin təşkil olunması önəmlidir.

Bununla yanaşı, qeyd edək ki, iqtisadi islahatların başlanmasından xeyli müddət keçməsinə və aqrar sahədə köklü struktur -institusional dəyişikliklər həyata keçirilməsinə baxmayaraq, bu sahə tam formada və müasir iqtisadiyyatın təkrar istehsalı prosesində hələ də öz funksiyalarını icra etməkdə müəyyən çətinliklərlə üzləşir. Belə ki, daha çox ön planda olan institusional, iqtisadi, texniki-texnoloji və digər istiqamətlər aqrar sferanın inkişafı üçün lazımi formada təkmilləşməyə ehtiyac duyur. Yuxarıdakı cəhətlərin təkmilləşməsində yaranan problemlərin həlli istiqamətində davamlı addımlar atılmış, zəruri tədbirlər görülmüşdür. Bu proseslər indi də davam edir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 11 aprel 2017-ci il tarixli Sərəncamında göstərildiyi kimi, “...ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyi üçün, qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektoru ötən dövr ərzində iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyənləşdirilmiş və görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradılmışdır. [1]

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilmişdir. Eləcə də, ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prosesində intensiv metodların geniş tətbiqində istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rolu olan aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılmışdır”

Bazar iqtisadiyyatı şəraitində aqrar sahənin mövcud vəziyyəti və davamlı inkişaf istiqamətləri bu sahədə səmərəli dövlət tənzimlənməsi kontekstində həyata keçirilir. Ümumi şəkildə, hər bir ölkədə bu mühüm sahənin dövlət tənzimlənməsinin məqsəd və vəzifələri - həmin ölkənin inkişaf xüsusiyyətləri və spesifikasından irəli gələn inkişaf konsepsiyası ilə müəyyən olunur. Aqrar sahənin dövlət tənzimlənməsinin əsas məqsədi - dəyər zəncirinin bütün həlqələri üzrə fəaliyyət prosesində səmərəliliyə nail olmaq və dayanıqlı inkişafı təmin etməkdir. Eyni zamanda yerli aqrar əmtəə istehsalçılarının gəlirini artırmaq, onların bazar şəraitində baş verən dəyişikliklərə çevik şəkildə uyğunlaşmasına təşkilati-iqtisadi yardım göstərmək, məhsul istehsalı və emalını stimullaşdırmaqdan və bazarın xarici rəqabətin əlverişsiz təsirlərindən çevik şəkildə qorunmasını təmin kimi məsələləri də buraya aid edilir.

Aqrar sahənin dövlət tənzimlənməsi - bütövlükdə ölkənin strateji maraqlarının qorunmasına, o cümlədən kənd təsərrüfatında iqtisadi müstəqilliyin təmin olunmasına xidmət edir. Lakin müasir şəraitdə bu məsələyə yanaşma tərzləri müxtəlif səciyyə daşıyır. Təbiidir ki, həmin prosesə müəyyən situasiyalarda yaranan və bəzən kəskin səciyyə daşıyan ziddiyyətlər də təsir göstərir. Bu baxımdan, aqrar sahənin dövlət tənzimlənməsinə yönəldilmiş tədbirlərin kompleks xarakter daşıması zəruridir. Bu zaman təbiidir ki, Azərbaycan kəndinin özəllikləri, qeyri-kənd təsərrüfatı istehsalının inkişafına nail olunması, müxtəlif infrastruktur sahələrin inkişafı hesabına kənd əhalisinin gəlirlərinin artırılması imkanlarının reallaşdırılması da nəzərə alınmalıdır. Problemə bu aspektdən yanaşdıqda qeyd etmək lazımdır ki, aqrar sahənin tənzimlənməsinə yalnız istehsal və satış fəaliyyəti rakursundan yanaşılması nisbətən məhdud səciyyə daşıyır...

Aparılan təhlillərdən göründüyü kimi, qloballaşma şəraitində aqrar sahənin dövlət tənzimlənməsinin əsas istiqaməti - bu sahədə istehsal - iqtisadi münasibətlərin yeni keyfiyyət müstəvisinə gətirilməsi yolu ilə daxili bazarın sabitliyinə və dayanıqlığına nail olunması, qeyd olunan sahədə dövlət himayədarlığının mütərəqqi forma və metodlarının seçilməsi və ölkənin beynəlxalq miqyasda öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə sıx bağlıdır. Ümumiyyətlə, aqrar sahəyə dövlət müdaxiləsinin mühüm vəzifəsi - mövcud iqtisadi, o cümlədən ixrac siyasətinin tənzimlənməsi və ölkəyə idxal olunan kənd təsərrüfatı və ərzaq məhsullarının bazar həcminin minimumlaşdırılması ilə bilavasitə əlaqədardır.

Nəzərə almaq lazımdır ki, “...aqrar sahənin dayanıqlı inkişafı - müasir dövrdə ölkəmizdə həyata keçirilən iqtisadi, o cümlədən islahatların dönməzliyinin təmin olunması, kənd yerlərinin sosial-iqtisadi inkişafının yüksəldilməsi, infrastrukturun müasir tələblərə uyğunlaşdırılmasında çox mühüm amil hesab olunur. Belə inkişaf kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqədə olan sahələrdə fasiləsiz iqtisadi artımın təmin edilməsinə yönəldilmiş tədbirlərin məcmusunu özündə əks etdirir. Aparılan təhlillər göstərir ki, yeni iqtisadi şəraitdə aqrar sahənin davamlı inkişafının təmin edilməsi - mövcud istehsal potensialından səmərəli istifadə edilməsi ilə bağlı tədbirlərin səmərəliliyindən bilavasitə asılıdır.

Aqrar sahənin sürətli və yüksələn xətlə inkişafı təkcə kənd təsərrüfatının, o cümlədən yerli məhsul istehsalçılarının potensial imkanları hesabına tam təmin edilə bilməz. Xüsusən də, hazırda respublikamızda texniki potensialının əksəriyyəti fiziki və mənəvi cəhətdən köhnəlmiş maşın, mexanizm və avadanlıqlardan ibarət olan, həm də geniş təkrar istehsalı həyata keçirmək üçün zəruri ma-

liyyə resurslarına malik olmayan aqrar sahənin öz gücü hesabına dayanıqlı inkişafa nail olması mümkün deyildir. Buna görə də, onun ardıcıl inkişafının əldə edilməsi-yalnız dövlətin iqtisadi tənzimləyicilərindən səmərəli istifadə edilməsi sayəsində mümkündür. Beləliklə, ölkə iqtisadiyyatında yüksək inkişafın əldə olunması, həm də aqrar sahənin dövlət tənzimlənməsinin sürətləndirilməsindən bilavasitə asılıdır. Qeyd edək ki, inkişaf etmiş bazar təmayüllü ölkələrdə dövlətin bu sahəyə məqsədyönlü təsiri - yalnız böhranlı situasiyaları neytrallaşdırmaq üçün deyil, həm də normal inkişafın təmin edilməsi baxımından formalaşmaqdadır.

Aqrar sahənin dövlət tənzimlənməsini şərtləndirən amillərdən biri də onun səmərəli inkişaf etdirilməsi ilə bağlı arqumentlərdir. Məlum olduğu kimi, kənd təsərrüfatı uzun illər boyu əhalinin məşğul olduğu əsas iqtisadi fəaliyyət növü olaraq qalmışdır. Lakin bir sıra amillərin təsiri nəticəsində, iqtisadiyyatda aqrar sahənin xüsusi çəkisi getdikcə aşağı düşməyə başlamışdır. Bu isə öz növbəsində, göstərilən sahədə məşğul olanların sayının azalmasına gətirib çıxarır.

Aqrar sahədə dövlətin fəal rolunu şərtləndirən amillərdən biri də ölkəyə ərzaq idxalının ixtisar edilməsi hesabına dövlətin tədiyyə balansının strukturunu yaxşılaşdırmaqdan ibarətdir. Araşdırmalar göstərir ki, ölkənin tədiyyə balansında mənfi tendensiyalar həm də kənd təsərrüfatı və ərzaq məhsullarının ticarətindəki mənfi saldodan yaranır. Doğrudur, idxalın həcminin ixtisar edilməsi ölkənin tədiyyə balansının mövcud vəziyyətinin yaxşılaşdırılmasının yeganə yolu deyildir. Lakin, ölkəyə ərzaq məhsullarının idxalı ilə ixracı arasında disproporsiyanın aradan qaldırılması - tədiyyə balansında mənfi saldonun həcminin azaldılmasının ən səmərəli vasitələrindən biridir. Məsələ burasındadır ki, aqrar sektorda istehsal edilən məhsulların idxalının həcminin azaldılması məcmu idxal göstəricisinin strukturunda əhəmiyyətli xüsusi çəkini təşkil edir. Deməli, dövlət tərəfindən aqrar sahənin çevik iqtisadi vasitələrlə tənzimlənməsi - son nəticədə tədiyyə balansında müsbət tendensiyaların yaranmasına gətirib çıxarır.

Azərbaycan dilinin leksikonunda özünə möhkəm yer tutan "tədarük" sözü ərəb sözü olub, müəyyən bir şeyi qabaqcadan hazırlama, yaxud bir işi görmək üçün əvvəlcədən hazırlıq görülməsi, daha dəqiq olaraq isə hazırlıq, ehtiyat yığmaq mənalarını verir. Lakin aqrar sahədə istehsal olunan məhsulların tədarükü və onun stimullaşdırılması məsələləri onun mövcud inkişaf mexanizminin mühüm tərkib hissələrindən birini təşkil edir. Uzun tarixi keçmişə malik olan bu proses, müasir bazar münasibətləri şəraitində yeni məzmun və yanaşma metodları tələb etməkdədir. Xüsusən də, aqrar sahədə anoloji bazar elementlərinin modernləşdirilməsi, göstərilən prosesə yanaşma bucağını da dəyişib...

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə göstərilir ki, "...məhsul yığımından sonrakı mərhələlərdə itkilərin azaldılması, məhsulun keyfiyyətinin yüksəldilməsi, ən əsası isə istehsalçıların bazara çıxış şərtlərinin yaxşılaşdırılması məqsədi ilə bazar infrastrukturunun təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Mövcud bazar infrastrukturu yerli istehsalçıların ticarət şəbəkələrinə əlverişli şərtlərlə daxil olmasına müəyyən maneələr yaradır və bəzən istehsalçılar yetişdirdikləri məhsulu ticarət vasitəçilərinin təklif etdikləri qiymət şərtləri ilə onlara satmağa məcbur olurlar. Bazar infrastrukturunun, xüsusilə də topdansatış və pərakəndə satış şəbəkələrinin kifayət qədər inkişaf etməməsi istehsalçı qiymətləri ilə bazar qiymətləri arasında fərqin 2-3 dəfə, bəzi hallarda isə daha çox olmasına gətirib çıxarır. İnkişaf etmiş ölkələrdə topdansatış bazarları ticarət, logistika, bazar məlumatlarının toplanması və yayılması, tələb və təklifə nəzarət funksiyalarının həyata keçirilməsi üçün zəruri vasitə rolunu yerinə yetirir və yüksək əlavə dəyərin yaradılmasında mühüm rol oynayır" [4].

Qeyd edək ki, "ərzaq məhsullarının hər bir növü üzrə satınalma qiymətini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi müəyyən edir. İstehsalçı təyin olunmuş alış qiymətindən razı olmadıqda avans götürdüyü məbləğdə həmin dövr üçün portal qiymətinə istehsal etdiyi kənd təsərrüfatı məhsulunu Cəmiyyətə satmağı öhdəsinə götürür. İstehsalçı ona ödənilmiş avans məbləği dəyərində istehsal etdiyi məhsulu satmaqdan imtina etdiyi təqdirdə 10 (on) gün müddətində, qeyd-şərtsiz Azərbaycan Respublikası Mərkəzi Bankının həmin dövr üçün müəyyən etdiyi uçot dərəcəsinə uyğun olaraq faizlər də

hesablanmaqla geri qaytarılır. Yetişdirilən və təqdim olunan məhsulların keyfiyyət göstəriciləri nəzərdə tutulduğu kimi olmadıqda, Cəmiyyət onun satış qiymətini aşağı sala (analoji məhsulların orta bazar qiymətini tətbiq edə) və ya ümumiyyətlə satınalmadan imtina edə bilər.

Göründüyü kimi, qeyri - neft sektorunun üstün inkişafına önəm kəsb etməsi şərtlərinə və aqrar sahənin dayanıqlı inkişafı şərtlərinə uyğun olaraq, kənd təsərrüfatı məhsullarının tədarükü sisteminin inkişafı istiqamətində müəyyən işlər həyata keçirilməkdədir. Təbii ki, həmin proseslərin dövlət tənzimlənməsinin səmərəli təşkili və təkmilləşdirilməsi məsələlərinə daha optimal yanaşılmalı, cəmiyyət ehtiyaclarının tədarük əsasında xammal, məhsul, həmçinin ərzaq fondu kimi təşkilində yeni innovativ üsullardan istifadə olunmalıdır.

**Aqrar sahədə əlverişli aqrobiznes mühitinin səmərəli təşkili**

Qeyri - neft sektorunun, xüsusən də onun ən mühüm istiqamətlərindən biri hesab olunan aqrar sahənin dayanıqlı inkişafına önəm verildiyi müasir şəraitdə - həlli vacib ən mühüm məsələlərdən biri də səmərəli aqrobiznes mühitinin formalaşması və onun düzgün inkişafının prioritet istiqamətlərinin müəyyən olunmasıdır. Təhlillər göstərir ki, bu günə qədər aqrar sahədə iqtisadi - təsərrüfat fəaliyyəti ilə məşğul olan biznes qurumları -istehsal etdikləri məhsulların satışının normal şəkildə həyata keçirilməsində müəyyən iqtisadi problemlərlə üzləşirdilər. Əslində normal aqrobiznes mühitinin hələ tam formalaşmadığı və inkişaf etmədiyi bir şəraitdə, bu tip halların baş verməsində qeyri - adilik ola bilməzdi.

Əslində, keçmiş iqtisadi sistemdə dövlətin aqrar siyasəti - bu mühüm sahənin inkişafına tam şəkildə və maksimum imkanlarla təkan verməkdən ibarət olmuşdur. Maraqlıdır ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları və istehlakçılarına bir sıra subsidiyalar ödənilirdi. Belə ki, müəyyən dövlət qurumları istehlakçılar üçün məhsulun qiymət səviyyəsini aşağı həddə, istehsalçılar üçün isə əksinə olaraq yüksək həddə saxlayırdı. Düzdür, həmin siyasət nəticəsində dövlətin aqrar sahəyə ayırdığı xərclərin həcmi maksimum səviyyədə yüksəlmiş və bu proses məcmu ehtiyatların sürətlə azalmasına təkan vermişdi.

Düzdür, ölkəmiz müstəqillik qazandıqdan sonrakı illərdə milli kənd təsərrüfatına diqqət və qayğının azaldılması nəticəsində, bu sahədə iqtisadi böhran halları yaşandı. Lakin bu sahədə həyata keçirilən torpaq islahatları yeni situasiyaya uyğun fəaliyyəti təşkil etməyə əlverişli imkan yaratdı. Bununla yanaşı, yeni şəraitdə aqrobiznes fəaliyyətinin düzgün təşkil edilməməsi ucbatından, ölkə əhalisinin ərzaq resursları ilə etibarlı təminatının formalaşmasında yerli istehsalın həcmi xeyli aşağı düşərək, idxal olunan məhsullar isə xeyli artmışdı. Həm də bu resursların yaranmasında,daxili istehsal hesabına müxtəlif növ kənd təsərrüfatı və ərzaq məhsulları ilə idxal məhsulları arasında nisbət çox böyük ölçülərdə dəyişirdi. Düzdür, hazırda həmin şəraitin müsbət istiqamətdə dəyişikliyə məruz qalması meylləri müşahidə olunmaqdadır. Həyata keçirilən keyfiyyət yönümlü tədbirlər, bu proseslərin müsbətə doğru dəyişdiyini əks etdirir. Hesab edirik ki, mövcud durumda aqrobiznes qurumlarının rəqabətqabiliyyətlilik göstəricilərinin daha da yüksəldilməsi və beynəlxalq bazarlarda baş verən mövcud tendensiyalara uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bütün bunları nəzərə alaraq, zəruri keyfiyyət şərtlərinə uygun aqrobiznes fəaliyyətinin təşkil olunması üçün, həmin subyektlərin iqtisadi potensialından səmərəli istifadə edərək, rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülməlidir.

Müşahidələr onu göstərir ki, aqrobiznes fəaliyyəti əsas etibarilə maddi-texniki təminat, marketinq və kadr kimi proseslərin (funksiyaların) yerinə yetirilməsini təmin edir. Göstərilən fəaliyyətdə dayanıqlı inkişafa nail olunmasının ən mühüm amili isə dəyər zəncirinin bütün həlqələri üzrə mövcud iqtisadi potensialdan daha effektiv istifadənin təmin edilməsi, yaxud başqa sözlə desək, aqrar sahədə xammal, kapital, əmək resursları və torpaqla bağlı olan vəsaitlərdən əldə edilən gəlir səviyyəsinin yüksəldilməsi ilə bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunan "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" ndə aqrobiznes mühitinin səmərəli təşkili və təkmilləşdirilməsinə dair hədəf istiqa-

mətləri və konkret işlərin həcm göstəriciləri müəyyənləşdirilib. Qeyd edək ki, aqrar biznesin inkişafına hərtərəfli yardım infrastrukturunun formalaşması və inkişafı istiqamətində bir sıra həlli vacib tədbirlərin həyata keçirilməsi çox mühümdür. Bu tədbirlər içərisində isə, aqroparkların təşkil olunması və mütərəqqi inkişaf yollarının daim təkmilləşdirilməsi öncül yerlərdən birini tutur. [4]

Nəzərə alsaq ki, bu qurumlar həm daxili, həm də xarici investorların cəlbinə əlverişli imkanlar yaradan şəffaf biznes mühitinin formalaşması istiqamətində çoxsaylı işlərin həyata keçirilməsinə əlverişli imkan yaradır, bu zaman onların fəaliyyətinin düzgün təşkili və təkmilləşdirilməsinə daha çox ehtiyac duyulur. Çünki, “... aqroparklar aşağıdakı bir sıra səbəblərə görə müəyyən üstünlüklərə malik hesab edilirlər:

- aqroparklarda istehsal-emal-logistika-marketinq qapalı zənciri yaranır və qurumun hər bir komponenti özünüidarə və özünəcavabdehlik prinsipi əsasında çalışır ki, nəticədə ortaq problemlər və ümumi maraqlar ətrafında birləşməklə müəssisənin rəqabətə davamlılıq qabiliyyəti təmin olunur;
- müasir texnika və texnologiyaların, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün şərait yaranır, texnikalardan istifadə əmsalı yüksək olur, ortaq xərclər minimuma endirilir;
- həm nəqliyyat xərcləri, həm də enerji sərfi azalır;
- kənd ərazilərinin inkişafına, kənd yerlərində informasiya-kommunikasiya texnologiyalarının genişlənməsinə şərait yaranır;
- ətraf mühitin qorunması, su və torpaq resurslarından səmərəli istifadə və onların mühafizəsi təmin edilir;
- peşəkar kadrlara tələbat yaratmaqla kənd təsərrüfatı və ərzaq sənayesi üzrə kadr hazırlığı stimullaşdırılır;
- heyvanların bəslənmə şəraitini mexanikləşdirməklə və saxlanma yerlərini genişləndirərək onların sərbəst hərəkət imkanlarını artırmaqla intensiv heyvandarlıq praktikasına əməl edilir;
- istehsalçılarla istehlakçılar arasında olan boşluq aradan qaldırılır və bir növ onlar arasında etibarlı “körpü” salınır və s.” [5].

Bütövlükdə isə, əlverişli aqrobiznes mühitinin düzgün və səmərəli təşkilində aqroparklar, aqrobiznes inkubatorları və startapların təşkil olunması önəm kəsb edir. Yuxarıda göstərilən Strateji Yol Xəritəsinə uyğun olaraq, nəzərdə tutulmuş istiqamətlərə uyğun həyata keçirilən işlərin ardıcıl və mərhələli şəkildə təşkil olunması nəzərdə tutulur ki, bu da aşağıdakı beş əsas mərhələni özündə birləşdirmək imkanlarına malikdir:

1) ilk növbədə aqrobiznes sahəsində informasiya-məsləhət xidmətləri səviyyəsinin institusional cəhətdən gücləndirilməsi;
2) zəruri startapların, həmçinin kiçik və orta sahibkarların biznes bacarıqlarının yüksəldilməsi;
3) startap kapitalının asan qaydada əldə olunmasına və biznes fəaliyyətinin təşkilinə lazımi dəstək göstərilməsi;
4) maliyyə mənbələrinə daha asan və səmərəli çıxış mənbələrinin təmin edilməsi;
5) nəhayət, aqrobiznes inkubatorlarının davamlı fəaliyyətinin təmin olunması.

Birinci mərhələyə uyğun, yəni aqrobiznes informasiya - məsləhət xidmətləri səviyyəsinin institusional cəhətdən gücləndirilməsi istiqamətində ilk növbədə mövcud aqrobiznes mühitinin hərtərəfli və geniş təhlilinin aparılması, həmçinin əldə edilən yekun nəticələrə uyğun şəkildə yaradılacaq aqrobiznes inkubatorlarının daha optimal forması və sərfəli dəyər zənciri elementləri əks olunacaqdır. Göstərilən inkubatorların bütün regionlarda təşkil olunması nəzərdə tutulur. Həm də bu zaman nəzərə alınması zəruri olan əsas məsələ həyata keçirilən institusionallaşma prosesinin aşağıdakı dörd mərhələni:

1) ayrı -ayrı regionlar üzrə müqayisəli üstünlüyə malik olan məhsulların seçilməsi;
2) aqrobiznes inkubatoru fəaliyyətinin əsas və prioritet istiqamətlərini müəyyənləşdirən təkmil strateji planın işlənilərək hazırlanması və mükəmməl şəkildə formalaşdırılması;
3) nəzərdə tutulan təlim proseslərinə uyğun zəruri məlumat və işlənilərək hazırlanması;

4) təlimləri təşkil edənlərin düzgün seçilməsi və onların hazırlanması mərhələlərini əhatə etməsidir.

İkinci mərhələdə isə, aqrar sahədə startapların, eyni zamanda kiçik və orta sahibkarların mövcud biznes qabiliyyətlərinin daha da yüksəldilməsi nəzərdə tutulur. Strateji Yol Xəritəsinə görə, aqrobiznes inkubatorları fəaliyyət üçün lazımi qaydalara uyğun təşkil edildikdən sonra, hər bir region üzrə lazımi elan veriləcək və əvvəlcədən hazırlanmış meyarlar nəzərə alınmaqla, həm də regionların mövcud xüsusiyyətləri və dəyər zəncirinin xüsusiyyətləri nəzərə alınaraq, 50 rezident müəyyən olunacaq.

Üçüncü mərhələ - zəruri startap kapitalının əldə olunması və aqrobiznes fəaliyyətinin təşkilinə dəstək tədbirlərini nəzərdə tutur. Sənədin qaydalarına uyğun olaraq, nəzərdə tutulan müxtəlif təlimləri uğurla tamamlayan və eyni zamanda uğurlu biznes plan hazırlayan rezidentlərə sonradan qaytarılmaq şərtilə startap kapitalı təqdim ediləcək və sonra isə aqrobiznesin təşkili üzrə əməli yardım tədbirləri daha da genişləndiriləcəkdir.

Dördüncü mərhələ isə, həyata keçirilən anoloji tədbirlərdə maliyyə imkanlarına daha rahat çıxış istiqamətlərinin işlənib hazırlanması və lazımi dəstək tədbirlərinin həyata keçirilməsi ilə bağlıdır. Göstərilən dəstək aqrar sahədə hüquqi və fiziki şəxslərin güzəştli şərtlərlə kredit resurslarına daha rahat çıxışına kömək göstərilməsidir. Bunun üçün, təsirli və effektiv mexanizmlərin hazırlanması imkanlarının dəyərləndirilməsi, həmçinin biznes inkubatorlarının müəyyən tövsiyələrinə uyğun, kredit əldə etmək istəyən qurumlara kreditlərə əlyetərliliyin sadələşdirilməsi və güzəştli kreditlərin verilməsi mexanizmlərinin hazırlanması nəzərdə tutulur.

Beşinci mərhələdə isə, aqrobiznes inkubatorlarının daha səmərəli fəaliyyətinin təmin olunması nəzərdə tutulur. Həmin fəaliyyətin davamlılığının təmin olunması istiqamətində - müəyyən rezidentlərə verilən startap kapitalının qaytarılması zamanı müəyyən əlavə komisyonların hesablanması da ola bilər ki, bu, aqrar inkubatorlara yönəldilən vəsaitlə yanaşı, əlavə kapitalın formalaşdırılmasına da münbit şərait yaradacaq.

**Aqrar investisiya mühitinin modernləşməsi**

Aqrar sahədə müxtəlif fəaliyyət istiqamətlərinin, o cümlədən tədarük sisteminin inkişafında sağlam investisiya mühitinin təmin edilməsi və onun modernləşməsi istiqamətində davamlı tədbirlərin həyata keçirilməsi böyük əhəmiyyətə malikdir. Bu proses, həm də aqrar sahədə tədarük fəaliyyətinin dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən biri kimi də çıxış edir. Göstərilən istiqamətlərdə maliyyə - kredit münasibətlərinin düzgün qurulması - son nəticədə, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının investisiya resurslarına olan tələbatının səmərəli ödənilməsinə, geniş təkrar istehsal prosesinin düzgün qurulmasına və bütövlükdə isə, aqrar sahənin maliyyə - investisiya durumunun daha da genişlənməsinə əsaslı təsir göstərir. Hesab edirik ki, aqrar sahədə dövlətin investisiya siyasətinin əsas məqsədi - keyfiyyətə əsaslanan məhsulun istehsal həcminin yüksəldilməsi yolu ilə daha sağlam və rəqabətyönümlü iqtisadi münasibətlərin qurulması olmalıdır. Bütövlükdə, ölkəmizin kənd təsərrüfatı sahəsində səmərəlilik göstəricilərini yüksəldərək, müqayisəli üstünlüyə malik mövqelərini xeyli təkmilləşdirmək imkanları vardır. Qeyd olunan üstünlük mövqelərinə uyğun şəkildə, investisiya qoyuluşu zamanı səmərəliliklə bağlı meyarların keyfyyət yönümlülüyünə önəm verilməlidir. [8]

Nəzərə almaq lazımdır ki, aqrar sahə, o cümlədən bu sahədə tədarük fəaliyyəti iqtisadiyyatın investisiya resurslarına daha çox ehtiyac duyulan ən önəmli fəaliyyət istiqamətlərindən biridir. Sözsüz ki, kənd təsərrüfatında istehsalın mövsümi xarakter daşıması, tədarük və satış proseslərinin bir - birinə uyğun gəlməməsi, xüsusən də istehsal - iqtisadi fəaliyyət prosesinin texnoloji amillərə nisbətən təbii amillərdən daha çox bağlılığı və digər özünəməxsus xüsusiyyətlər, bu sahənin maliyyə və kredit resurslarına ehtiyacının daim yüksək olduğunu şərtləndirir.

Qeyd edək ki, başqa istehsal sahələrindən fərqli olaraq, tədqiq etdiyimiz sahə dövlətin lazımi maliyyə - kredit dəstəyi olmadan tam və səmərəli fəaliyyət göstərmək imkanlarına malik deyildir. Bəzən də müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalına çəkilən xərclər, həmin məhsulların tədarükündən daxil olan vəsaitlərdən daha yüksək olur. Məhz buna görə də iqtisadi cəhətdən in-

kişaf etmiş ölkələrdə məhsul istehsalçılarının gəlirlərini tənzimləmək məqsədilə, dövlət aqrar sahəyə müxtəlif dotasiya və subsidiyalar ayırır.

Mövcud şəraitdə göstərilən sahənin inkişafında maliyyə - büdcə və pul - kredit siyasətində aşağıdakı məsələlər daim diqqət mərkəzində olmalıdır:

- aqrar sahibkarlıq fəaliyyətinin idxalla rəqabətdə dəstəklənməsi - mövcud maliyyə - büdcə və pul - kredit siyasətinin mühüm tərkib hissəsi kimi qalmalı, bu sahəyə ayrılan kredit faizləri aşağı salınmalı və yaxud ucuzlaşdırılmalıdır. Sözsüz ki, göstərilən məqsədlər üçün daha çox mənbələr hərəkətə gətirilməli və müvafiq sistemli tədbirlər həyata keçirilməlidir. Eyni zamanda, institusional problemlərin həlli baxımından aqrar sahibkarlığın maliyyə - kredit təminatının sənədləşmə prosesinin sadələşdirilməsi davam etdirilməlidir;
- istehsalı prosesində bilavasitə iştirak etdiyi kənd təsərrüfatı məhsulunu son istehlakçı tələblərinə cavab verən səviyyəyə çatdıran sahibkarlara lazımi kredit və vergi güzəştləri verilməlidir;
- müxtəlif regionlarda ixracyönümlü aqrar fəaliyyətin stimullaşdırılması mexanizmi təşəkkül tapmalı, formalaşdırılmalıdır;
- hazırda bankların aqrar sahəyə daha fəal nüfuz etməsi üçün normativ- hüquqi bazada təkmilləşmələr sürətlənməli, həmçinin mövcud girov mexanizmləri də təkmilləşdirilməlidir və s.” [2].

Hesab edirik ki, aqrar sahədə tədarük sisteminin fəaliyyətinin səmərəli təşkilində bank - kredit sisteminin mühüm elementlərindən biri sayılan kredit ittifaqlarından istifadə imkanları da nəzərdən keçirilə bilər. Lakin göstərilən istiqamətdə həyata keçirilən tədbirlər dəqiq düşünülməli və ölçülüb-biçilməli və davamlı olmalıdır. İlk öncə, aqrar sahə ilə bağlı olan kredit ittifaqlarının fəaliyyətinin monitorinqi aparılmalıdır. Təbii ki, bu ittifaqların monitorinqinin aparılması onların cari iqtisadi durumunu düzgün müəyyən etmək üçün vacibdir. Belə tədbirlər - fəaliyyət göstərən kredit ittifaqlarının zəif və güclü tərəflərini aşkar etməyə, həmçinin onların təşkili və fəaliyyəti prosesində qarşılaşdıqları problemləri müəyyən etməyə imkan verər. Bu ittifaqların fəaliyyətinin monitorinqi, həm də onlara səmərəsi və faydası olmayan xərclərdən qaçaraq, daha optimal inkişaf yollarını müəyyən etməyə də imkan verə bilər. Aqrar sahədə bu tip fəaliyyət iştirakçılarının kredit qabiliyyətliyinin müəyyən normativ qaydalara uyğun qiymətləndirilməsi aparılmalıdır. Bu qiymətləndrmə tədbirlərinin əhəmiyyəti isə onunla bağlıdır ki, əldə olunan nəticələr aqrotədarük kreditlərindən geniş istifadə sahəsində normativ qaydaların işlənib hazırlanmasında istifadə oluna bilər.

### *Nəticə*

Qeyri - neft sektorunun dayanıqlı inkişafına üstünlük verildiyi müasir şəraitdə aqrar sahənin inkişafının mövcud durumunun təhlili göstərir ki, son zamanlar bu istiqamətlərdə əhəmiyyətli addımlar atılmaqla, hüquqi, təşkilati (modern idarəetmə), texniki və digər istiqamətlərdə mühüm tədbirlər həyata keçirilir. Bunlarla yanaşı, hesab edirik ki, aqrar sahədə aparılan modernləşmə yönümlü tədbirlər daha da dərinləşdirilməlidir.

## ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2017-ci il tarixli Sərəncamı.
2. Aqrar sahə modernləşmə dönəmində: problemlər və onun həlli yolları (kollektiv monoqrafiya). Bakı: 2009, 505 s.
3. www.nedir.az
4. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”.
5. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı: Nasir, 2007, 602 s.
6. “Tədarük və təchizat” jurnalı, № 1/2017, 32 s.
7. www.tedaruk.gov.az
8. Ataşov B. X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı:Kooperasiya, 2017, 536 s.

*Хаджар Аждар кызы Оруджова*
*преподаватель Гянджинского*
*Государственного Университета*

**Роль системы снабжения и закупок в аграрном секторе экономики Азербайджана**

***Резюме***

**Целью исследования** является рассмотрение содержательных элементов системы снабжения, широкий анализ и оценка текущего состояния деятельности по снабжению в данном направлении, а также определение приоритетных направлений дальнейшего совершенствования аграрной системы снабжения в соответствии с существующими требованиями рыночных экономических отношений.

**Методология исследования**-это многочисленные работы как отечественных, так и зарубежных ученых по правильному формированию, формированию и развитию системы снабжения, указы и распоряжения Президента страны, законы и государственные программы, принятые Милли Меджлисом, а также другие нормативно - правовые акты.

**Прикладное значение исследования.** Важные научные результаты, полученные в результате выполненной исследовательской работы, и выдвинутые практические предложения создают условия для комплексного решения ряда вопросов. В то же время проведение необходимых и комплексных мер по поддержке оптимального формирования и совершенствования системы снабжения в сельском хозяйстве благоприятно с точки зрения построения системы правильного анализа и оценки деятельности на ГЭС.

**Оригинальность и научная новизна исследования**-в указанной области определены основные направления деятельности системы снабжения, соответствующие рыночным условиям, выявлены ее основные и важные недостатки.

***Ключевые слова: экономика страны, аграрный сектор, устойчивое развитие, система закупок, государственное регулирование, развитие.***

***Hajar Ajdar Orucova***
***the teacher of Ganja State University***

**The role of the supply and procurement system in the agricultural sector of the Azerbaijani economy**

***Summary***

**The purpose of the study** the aim of the study is to review the content elements of the procurement system, to assess the current situation of procurement activity in the projected direction and to determine the priority directions of further improvement of the agrarian procurement system in line with the current requirements of market economic relations.

**Methodology** - numerous works of both local and foreign scientists in the direction of correct formation, formation and development of the procurement system, far-man and orders of the president of the country, laws and state programs adopted by the Milli Majlis and other legal - normative acts.

**Significance of the study.** Important scientific results obtained as a result of the current research work and advanced practical proposals - complex solution of a number of issues-create conditions for. At the same time, it is advantageous in terms of carrying out necessary and comprehensive measures to support the optimal formation and improvement of the agricultural supply system, as well as the establishment of a system of correct analysis and evaluation of cross-activity.

**Originality / value** - the main activity directions of the procurement system in the given field in accordance with the market conditions of Monas-bet were determined and its main and important prin-SIPs were found.

***Key words: country economy, agrarian sector, sustainable development, procurement system, state regulation, development.***